**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

| | |
|---|---|
| Haradan: | SBRS |
| Haraya: | MİƏİ, MRTİ, MİHİ, MHSİ |
| Surəti: | Aİ üzv ölkələrindəki Səfirliklərə, SVŞN, NAVŞ, NNAT |
| Çıxış nömrəsi: | SBRS/ 032 /16 |
| Tarix: | 13 / 01 /16 |
| Sənəd necə göndərilir: | Elektron poçt |
| Səfirliyin ........................N-li məktubuna istinad | |
| Səhifələrin sayı: | 1+ 2 |
| Əlavə olunur | |
| Məhdudluq qrifi: | Adi |
| TəciliIiyi: | Çox təcili |
| Vacibliyi: | Çox vacib |
| Əvvəlki müraciətlər: | |

XİN-in .................... N-li məktubuna cavab
..................................................tarixinə qədər cavab verilməlidir

Məruzə üçün: Nazirə,
Nazir müavini: M.Məmməd-Quliyevə
Nazir müavini: A.Əzimova

Məlumat verilməsi üçün: AR Prezidentinin Administrasiyasına

**Məsələyə dair:** *Azərbaycanla Strateji Tərəfdaşlıq Sazişi layihəsi üzrə Bakıda aparılmış ilkin məsləhətləşmələrlə bağlı Aİ rəsmilərinin təəssüratları barədə*

Səfir: Fuad İsgəndərov

İcraçı: Anar Şükürov (3158)

Nəzərinizə çatdırırıq ki, "Bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa İttifaqı arasında Strateji Tərəfdaşlıq haqqında Saziş" layihəsi ilə bağlı Bakıda keçirilmiş ilkin məsləhətləşmələrlə bağlı Aİ tərəfinin təəssüratlarını öyrənmək məqsədilə tərəfimizdən Aİ rəsmiləri ilə müzakirələr aparılmışdır. Müxtəlif görüşlər zamanı müqabil tərəf aşağıdakı fikirləri bölüşmüşdür:

- Aİ nümayəndə heyəti ilk məsləhətləşmələrin müsbət ruhda keçməsindən məmnun qalmışdır. Nümayəndə heyətinin müşahidələrinə əsasən Azərbaycan tərəfi Saziş layihəsində 3 əsas məsələ - Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, işğal olunmuş Azərbaycan ərazilərində istehsal olunmuş məhsulların Aİ-yə idxalının qarşısının alınması, multikulturalizm və dinlərarası dialoq sahəsində əməkdaşlıq perspektivlərinə xüsusi vurğu etmişdir.

- Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Aİ Azərbaycanın mətndə əks olunmuş mövqeyinə yaxınlaşmağın zəruriliyini dərk edir, lakin mətndə Minsk Qrupunun roluna daha çox yer verilməsini istərdi.

- Multikulturalizm və dinlərarası dialoq sahəsində əməkdaşlığı Aİ maraqla qarşılamışdır, lakin Aİ üzv ölkələri arasında hal-hazırda dinlərarası dialoq məsələsinə heç də birmənalı mövqe nümayiş etdirilmir.

- Aİ nümayəndə heyətinin rəhbəri Tomas Mayr-Hartinq ilk məsləhətləşmələrlə bağlı Bakıda Aİ üzv ölkələrinin Səfirləri üçün verdiyi brifinqdə Aİ-nin Azərbaycanla gələcək ikitərəfli hüquq öhdəlikli sənədin Strateji Tərəfdaşlıq adı ilə Aİ Şurasına təqdim oluna biləcəyini istisna etməmişdir.

- İlk məsləhətləşmələrin nəticələrinin təqdimatı 18-19 yanvar 2016-cı il tarixində Aİ xarici işlər nazirləri şurasının iclasının gündəliyinə daxil edilmişdir.

- Prosedura əsasən hər hansı ikitərəfli Saziş üzrə rəsmi danışıqlar üçün mandatın verilməsi məqsədilə Avropa Xarici Fəaliyyət Xidməti (EEAS) tərəfindən Aİ Şurasına ediləcək müraciət zamanı həmin Saziş layihəsinin mətninin tam olması zəruri deyil. Yəni, rəsmi mandatın verilməsi mərhələsində Aİ Şurası Saziş layihəsinin təfsilatlarına varmır. Bu mərhələdə əsas tələb Sazişin strukturu və orada yer alacaq əməkdaşlıq sahələrinin Aİ-nin maraqlarının təmin olunması perspektivlərini vəd etməsidir. Azərbaycan tərəfinin təqdim etdiyi Saziş layihəsində təbii olaraq birtərəfli maraqlar öz əksini tapdığından Aİ öz maraqlarının bu sənəddə əks olunmasına Azərbaycan tərəfinin nə dərəcədə hazır olmasını məsləhətləşmələr sayəsində müəyyən etməyə çalışır.

Görüşlər zamanı müqabil tərəfə bildirilmişdir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan tərəfinin təqdim etdiyi mətn prinsipiallığını saxlayır. Münaqişənin həllində Minsk Qrupunun roluna istinadın Aİ-nin arzu etdiyi formada verilməsi məsələsinə gəldikdə isə, alternativ ifadə münaqişənin həllində Minsk Qrupunun faktiki "inhisarçı" fəaliyyətinə və "status-quo"nun davam etdirilməsinə rəvac verməməlidir. Bu xüsusda, ATƏT-in 23 mart 1995-ci il tarixli 525/95 saylı sənədinin tələbləri həmsöhbətlərin diqqətinə

çatdırılmış və bildirilmişdir ki, həmin sənəddə həmsədrlərin öz fəaliyyətlərində BMT TŞ-nın müvafiq qətnamələri, BMT Nizamnaməsi və ATƏT-in Budapeşt Sammitinin qərarlarını rəhbər tutmaları və BMT TŞ-nın qətnamələrinin icrası haqqında BMT TŞ-nın Prezidenti və BMT-nin Baş Katibinə hesabat vermələri təsbit olunmuşdur. Bu baxımdan, Saziş layihəsində münaqişənin həllində ATƏT-in Minsk Qrupunun həmsədrlərinin rolu, həmsədrlər institutunun öz mandatını doğrultmaq tələbi mahiyyətində verilməlidir.

Eyni zamanda vurğulanmışdır ki, Aİ Saziş layihəsində münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini Aİ-nin Ermənistanla ikitərəfli sənəddə razılaşdırdığı və ya razılaşdıracağı mətnin "əsiri"nə çevirməməlidir.

Apardığımız fikir mübadiləsi əsasında belə qənaətə gəlinir ki, Saziş layihəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Aİ-nin mövqeyi daha çox EEAS tərəfindən diqtə olunur və Aİ üzv ölkələrinin əksəriyyəti Azərbaycanın maraqlarına əsaslanan əks-arqument gətirə bilmək üçün ölkəmizin mövqeyinin təfsilatından istənilən səviyyədə məlumatlı deyildir. Fikir mübadiləsi zamanı həmsöhbətlərimiz bu amili etiraf etmişdir.

Bununla əlaqədar olaraq, Strateji Tərəfdaşlıq Sazişi layihəsinin Aİ üzv ölkələrində akkreditə olunmuş diplomatik nümayəndəliklərinə göndərilməsini və sözügedən Saziş layihəsində Azərbaycanın prinsipial məsələlərinə Aİ üzv ölkələrinin zəruri dəstəyinin təmin olunması istiqamətində işin aparılması məqsədilə müvafiq təlimatın verilməsini təklif edirik.

Nəzərdən keçirilməsi üçün diqqətinizə təqdim olunur.